


**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

Ümummilli Lider HEYDƏR ƏLİYEV

BDU

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

31 avqust 2023-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR



**BDU tələbələri Heydər Əliyev Mərkəzini ziyarət edib** ➔Səh.2

**BDU və Türkiyənin Eskişehir Texniki Universiteti arasında "Erasmus" mübadilə protokolu imzalanıb** ➔Səh.2

**BDU son bir il ərzində QS-də bu indikatorlar üzrə irəliləyişə nail olub** ➔Səh.2

**BDU-nun "BSU Creativity Workz" komandası "TEKNOFEST - Girişim Yarışması"nın finalında çıxış edib** ➔Səh.3

**"Gənc istedadlar" liseyinin qızıl və gümüş medala layiq görülmüş məzunları ilə görüş** ➔Səh.3

**Ana qədər əziz, Vətən kimi müqəddəs** ➔Səh.4

**BDU-nun 6 tələbəsi I Beynəlxalq Proqramlaşdırma Düşərgəsində iştirak edir** ➔Səh.5

**BDU-nun magistraturasına qəbul planı 91,24 faiz dolub** ➔Səh.7





**Dövlət Proqramı çərçivəsində dünyanın nüfuzlu ölkələrində təhsil alacaq BDU məzunları ilə görüş** ➔Səh.3





**BDU tələbələri "Vəkil olmaq istəyirəm" adlı II yay məktəbində iştirak ediblər** ➔Səh.5





**Tələbələr Geoloji Kəşfiyyat Agentliyində istehsalat təcrübəsi keçiblər** ➔Səh.7





**BDU Könüllüləri təmizlik aksiyasında iştirak edib** ➔Səh.7





**"Gənc istedadlar" liseyinin şagirdlərinin növbəti uğuru** ➔Səh.8




# Qalib ölkənin qalib gəncliyi

***25 il əvvəl, 1998-ci il avqustun 8-dən 12-dək dünya ölkələrinin gənclərlə iş üzrə nazirlərinin iştirakı ilə Lissabonda keçirilən beynəlxalq konfransda hər il avqustun 12-nin Beynəlxalq Gənclər Günü (International Youth Day) kimi qeyd olunması təşəbbüsü irəli sürülüb.*** 1999-cu il dekabrın 17-də isə BMT Baş Assambleyası bu əlamətdar günün təsis edilməsi barədə qərar qəbul edib. Bu günün məqsədi dünya əhalisinin yarıdan çoxunu təşkil edən gənclərə lazımi diqqət göstərmək, onların hərtərəfli inkişafını təmin, təhsildə, elmdə və istehsalatda qazandıqları nailiyyətləri təbliğ etməkdir.

Yer üzündə elə bir xalq yoxdur ki, özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəslə bağlamasın. Sağlam, savadlı, istedadlı gənclərin yetişdirilməsi hər bir dövlətin qarşısında duran başlıca məqsədlərdən biridir. Çünki istənilən xalqın gələcəyi, hər bir ölkənin müqəddəratı bugünkü gənclərdən asılıdır.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, insan kapitalının ən tərəqqipərvər, dərrakəli və çevik tərkib hissəsi kimi formalaşması xüsusilə önəmlidir. Böyük iftixar hissi ilə deməliyik ki, müstəqil Azərbaycanın müasir gəncliyi Ulu Öndər Heydər Əliyevin banisi olduğu azərbaycançılıq məfkurəsinə sadiq olaraq milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, əcdadlarımızdan miras qalan adət-ənənələrimizi layiqincə qoruyur, zənginləşdirir və yaşadır, təhsildə, əmək fəaliyyətində uğur qazandıqda təkcə öz gələcəyi barədə deyil, ilk növbədə doğma Azərbaycanın bu günü və sabahı haqqında düşünür, yüksək vətəndaşlıq hissi ilə yaşayır.

Ölkəmizdə gənclər siyasətinin əsasını daim xalqına arxalanan, gənclərə böyük ümidlər bəsləyən, Azərbaycanın gələcəyinin onların əlində olduğunu vurğulayan Ulu Öndərimiz Heydər Əliyev qoyub. Ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə Ümummilli Liderimiz gənclərin imkan və bacarıqlarını yüksək dəyərləndirib, onların xalqa və dövlətə sadiq vətəndaşlar kimi formalaşmasına xüsusi önəm verib, təməlini qoyduğu gənclər siyasətini müstəqil dövlətimizin ən mühüm fəaliyyət istiqamətlərindən birinə çevirib.

1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması, 1996-cı ildən başlayaraq mütəmadi olaraq Azərbaycan gənclərinin forumlarının keçirilməsi, 1997-ci ildə fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi, gənclərlə bağlı beş Dövlət Proqramının qəbul olunması, 1999-cu ildə "Dövlət gənclər siyasəti haqqında" Fərmanın, 2002-ci ildə "Gənclər siyasəti haqqında" Qanunun imzalanması və geniş fəaliyyət proqramının təsdiqlənməsi dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan gəncliyinə böyük diqqət və qayğısının təzahürüdür.

Bu gün yeni reallığa qədəm qoymuş Azərbaycanda dövlət gənclər siyasəti məzmun və keyfiyyətcə yeni mərhələsini yaşayır. Ölkə Prezidenti cənab İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları, fərman və sərəncamları, təşəbbüsləri və əməlləri ilə təsdiq edir. Gənclərin hərtərəfli inkişafı, mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsi, sağlamlığı və təhsili, vətənpərvərlik tərbiyəsi, sosial müdafiəsi, məşğulluğunun təmin olunması ilə bağlı problemlərin həlli istiqamətində görülən işlər, həyata keçirilən genişmiqyaslı layihələr, respublika səviyyəli və beynəlxalq tədbirlər ölkə başçısının bu sahəyə böyük diqqət və qayğısının bariz nümunəsidir.

*(ardı 2-ci səhifədə)*


**Dövlət Proqramı ilə Edinburq Universitetinə qəbul olan BDU məzunu: "Ölkəmi xaricdə təmsil etmək əvəzsiz duyğudur"** ➔Səh.8

# Qalib ölkənin qalib gəncliyi

(əvvəli 1-si səhifədə)




2005-2009-cu illəri əhatə edən Dövlət Proqramının təsdiq edilməsi, 2005-ci ildə gənc ailələrə güzəştli ipoteka kreditlərinin verilməsi barədə Fərmanın imzalanması, 2007-ci ilin "Gənclər ili" elan edilməsi, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı"nın, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının təsdiqlənməsi, 2011-ci ildə Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq olunması, 2019-cu ildə "Yüksəliş" müsabiqəsinin təsisi, 2020-ci ilin "Könüllülər ili" elan edilməsi ölkəmizdə dövlət gənclər siyasətinin davamlı olaraq həyata keçirildiyini bir daha sübuta yetirir.

Dövlətimizin davamlı inkişaf konsepsiyasının, o cümlədən gənclər siyasətinin uğurla gerçəkləşməsində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətləri də böyükdür. Birinci xanımın rəhbərlik etdiyi Fond gənc nəslin sağlamlığının qorunması, xüsusilə də fiziki qüsurlu uşaq və gənclərin, müharibədə döyüşmüş qazilərin sağlamlığının bərpa olunması, gənclərin təhsil alması və məşğulluğunun təmin edilməsi, onların vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində böyük layihələrə imza atır, genişmiqyaslı tədbirlər həyata keçirir.

Azərbaycan gəncliyi tarix yazan gənclikdir. Rəşadətli Azərbaycan Ordusunun sıralarında torpaqlarımızın işğaldan azad edilməsi uğrunda 2020-ci il sentyabrın 27-də başlayan və noyabrın 10-dək davam edən Vətən müharibəsində mətanətlə vuruşan gənclərimizin adları xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazılıb. Gənclərimizin misilsiz qəhrəmanlığı ilə əldə olunan şanlı Zəfər sayəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu.

Bu gün azad edilən torpaqlarımızda görülən quruculuq-abadlıq işlərində də gənclərimiz fəal iştirak edirlər.

Azərbaycan gənci olmaq həqiqətən də şərəflidir. Şərəfli olduğu qədər də məsuliyyətlidir. Çünki Ulu öndərimiz Heydər Əliyevin dediyi kimi, "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir". Gənclərimiz bu ümidi doğrultmağa hər zaman hazırdırlar. Ölkə Prezidenti möhtərəm İlham Əliyevin "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" - sözləri isə Azərbaycan dövlətinin gənclərə yüksək etimadının, gənclərin isə Prezidentə dərin ehtiramının bariz nümunəsidir.

Müasir Azərbaycan gəncləri xalqımızın ləyaqətli övladları, ölkəmizin dəyərli vətəndaşları olduqlarını öz əməlləri ilə sübut ediblər. Bu gün "Kimdir Azərbaycan gənci?" sualına cavab birmənalıdır:

Vətənini sevən, xalqına bağlı, dövlətinə sadiq ölkə vətəndaşıdır...

Haqq və ədalətin bərpası uğrunda canından keçməyə hazır olan, düşmənə mərdliklə sinə gərən, şəhidlik zirvəsinə ucalmağı şərəf bilən rəşadətli əsgərdir...

Dövlətinin inkişafı, xalqının rifahı naminə qurub-yaradan, əkib-becərən, işğaldan azad etdiyi torpaqlara nəfəs verən fəhlədir, mühəndisdir, inşaatçıdır...

Quruda və suda "qara qızıl" hasil edən neftçidir, xəstələrə şəfa verən həkim, uşaqlara bilik verən müəllimdir...

Elm öyrənən, təhsil alan tələbədir Azərbaycan gənci.

Bu şərəfli adı daşıyan hər bir kəsin Beynəlxalq Gənclər Günü mübarəkdir!

**Ramin Səmədov**
*Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri*

# BDU tələbələri Heydər Əliyev Mərkəzini ziyarət edib

***BDU Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə "Heydər Əliyev İli"nə həsr olunmuş "Güclü lider, güclü Azərbaycan" layihəsi çərçivəsində fəal tələbələrin Heydər Əliyev Mərkəzinə ziyarəti təşkil edilib.***




Ziyarət zamanı tələbələrə dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin mənalı həyatı və çoxşaxəli siyasi fəaliyyəti barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, mərkəzdə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərini əhatə edən fotolar, arxiv sənədlərinin surətləri, eləcə də müxtəlif eksponatlar nümayiş etdirilir. Həmçinin diqqətə çatdırılıb ki, Mərkəz dünyada bənzərsiz olması ilə diqqəət çəkən məkanlardan biridir.

Qeyd edək ki, BDU-nun Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə "Heydər Əliyev İli"nə həsr olunmuş "Güclü lider, güclü Azərbaycan" layihəsinin keçirilməsində məqsəd gənclərin liderlik keyfiyyətlərinin formalaşdırılması və stimullaşdırılmasındır.

# BDU və Türkiyənin Eskişehir Texniki Universiteti arasında "Erasmus" mübadilə protokolu imzalanıb

***Avqustun 14-də BDU ilə Türkiyənin Eskişehir Texniki Universiteti arasında "Erasmus" mübadilə protokolu imzalanıb.***

Protokolu BDU-nun rektoru Elçin Babayev və Türkiyənin Eskişehir Texniki Universitetinin rektoru Adnan Özcan imzalayıb. Protokol çərçivəsində təhsilalanların, o cümlədən tədqiqatçıların və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

Qeyd edək ki, əsası 2018-ci ildə qoyulmuş Eskişehir Texniki Universiteti Türkiyənin nüfuzlu universitetlərindən biridir. Eskişehir Texniki Universitetində beş fakültə, iki məktəb, dörd araşdırma mərkəzi fəaliyyət göstərir.

# BDU-nun Hirş indeksi 57-yə çatıb

## *Hirş indeksi, "Web of Science" bazasına daxil olan dərgilərdəki elmi əsərlərin və istinadların sayı ilə BDU Azərbaycan universitetləri arasında liderliyini qoruyur*

***"Clarivate Analytics" Beynəlxalq İnformasiya Agentliyinin rəsmi məlumatına əsasən, BDU-nun Hirş indeksi 57 olub. Hər bir əsərə istinadların orta sayı isə 7.03-ə qədər yüksəlib.***

Agentliyin rəsmi məlumatına əsasən, BDU-nun əməkdaşları, doktorantları və tələbələri tərəfindən "Web of Science" bazasına daxil olan dərgilərdə artıq 4109 elmi əsər nəşr edilib. Bu əsərlərə 29000-ə yaxın istinad edilib.

Respublikanın davamlı inkişafı naminə elmi yenilikləri və innovasiyaları tədris prosesinə tətbiq etməklə fəaliyyətini "təhsil–elm–sənaye" formatında quran BDU elmi tədqiqatlarda keyfiyyətin artırılmasına xüsusi fikir verir. Belə ki, 2023-ci ilin ilk səkkiz ayı ərzində "Web of Science" bazasına daxil olan dərgilərdə BDU tərəfindən nəşr edilmiş 129 elmi əsərin 23-ü Q1, 42-si Q2, 32-si Q3 və 32-si Q4 kvartil kateqoriyalı jurnallarda dərc olunub. Cari ilin ilk səkkiz ayı ərzində bazaya daxil olan jurnallarda dərc olunmuş elmi əsərlərə 3500-dən çox istinad edilib. Dərc olunmuş məqalələrdən 4-ü icmal tipli, 16-sı erkən və 55-i açıq girişə malikdir. Riyaziyyat, Fizika, Kimya, Biologiya, Yer elmləri kimi sahələrə aid olan məqalələrin 37 faizi müxtəlif elm sahələrinin qovşağında aparılmış elmi tədqiqatların (multidissiplinar) nəticələrini özündə ehtiva edir.

Onu da qeyd edək ki, Hirş indeksi, "Web of Science" bazasına daxil olan dərgilərdəki elmi əsərlərin və istinadların sayı ilə BDU Azərbaycan universitetləri arasında liderliyini qoruyur.

# BDU son bir il ərzində QS-də bu indikatorlar üzrə irəliləyişə nail olub

***BDU "QS Quacquarelli Symonds" beynəlxalq reytinq agentliyi tərəfindən aparılan "QS World University Rankings 2024" qiymətləndirməsində bir sıra indikatorlar üzrə öncəki ilə nisbətən irəliləyiş əldə edib.*** Belə ki, son bir il ərzində akademik reputasiya (academic reputation) indikatoru üzrə 30% (7.4-dən 9.6-ya), işəgötürən reputasiyası (employer reputation) indikatoru üzrə 68% (1.9-dan 3.2-yə), fakültə-tələbə nisbəti (faculty student ratio) indikatoru üzrə 15% (29.5-dən 33.9-a), fakültə üzrə elmi məqalələrə istinad (citation per faculty) indikatoru üzrə isə təxmini 8% (1.3-dən 1.4-yə) artış əldə olunub.

Məlumat üçün bildirək ki, QS qiymətləndirmə metodologiyasına (2023) əsasən qeyd olunan indikatorlar ümumi qiymətləndirmənin 75%-ni (akademik reputasiya 30%, işəgötürən reputasiyası 15%, fakültə -tələbə nisbəti 10%, fakultə üzrə istinad isə 20%) əhatə edir.

# Dövlət Proqramı çərçivəsində dünyanın nüfuzlu ölkələrində təhsil alacaq BDU məzunları ilə görüş

***Avqustun 31-də BDU-nun rektoru Elçin Babayev "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın iştirakçısı kimi dünyanın nüfuzlu universitetlərində magistratura təhsili alacaq BDU məzunları ilə görüşüb.***

Rektor məzunları təbrik edib, onlara uğurlar arzulayıb.

BDU rektoru Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, I vitse-prezident Mehriban Əliyevanın elm və təhsil siyasəti, gənclərin yüksəkixtisaslı kadr kimi yetişməsi yönündə atdıqları addımların önəmini qeyd edib və bu siyasətin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayıb. O, Dövlət Proqramı əsasında təhsil alacaq BDU məzunlarının xarici ölkələrdə Vətənimizi uğurla təmsil edəcəklərinə əmin olduğunu qeyd edib, onlara öz tövsiyələrini verib.



Qeyd edək ki, BDU-nun 16 məzunu "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın iştirakçısı adını qazanıb. Onlardan 13 nəfəri Birləşmiş Krallıq, 3 nəfəri isə ABŞ-da təhsilini davam etdirəcək. Məzunlardan ikisi ABŞ-ın Harvard Universitetinə qəbul olub.

Məzunlardan 10-u 2023-cü ilin, 6-sı isə əvvəlki illərin məzunudur.

# "Gənc istedadlar" liseyinin qızıl və gümüş medala layiq görülmüş məzunları ilə görüş

***Avqustun 3-də BDU-nun Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, Tədrisin təşkili və idarə olunması Mərkəzinin müdiri Elçin Məmmədov və liseyin direktoru Arif Bağırov BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin qızıl və gümüş medala layiq görülmüş builki məzunları ilə görüşüb.***

Əliş Ağamirzəyev təhsildə qazandıqları uğurlara görə məzunları təbrik edib. Prorektor liseydə yaradılmış tədris şəraitindən, lisey şagirdlərinin respublika və dünya olimpiadalarında əldə etdikləri nəticələrdən danışıb. Qeyd edib ki, bu il liseyin 9 məzunu qızıl və gümüş medala layiq görülüb.

Tədrisin təşkili və idarə olunması Mərkəzinin müdiri Elçin Məmmədov və "Gənc istedadlar" liseyinin direktoru Arif Bağırov da məzunların qazandıqları bu uğurun gələcək inkişafları üçün önəmli başlanğıc olduğunu vurğulayıblar.

Qeyd olunub ki, 2023-cü ildə "Sabahın alimləri" müsabiqəsində "Gənc istedadlar" liseyinin şagirdləri xüsusi fərqləniblər. Onlardan XI sinif şagirdləri Misir Hüseynli və Ayşan Hacıyeva fizika və astronomiya, Ayaz Ömərli və Ömər İbrahimov isə kimya istiqaməti üzrə I yerə layiq görülüblər. X sinif şagirdi Camal Axundov biologiya istiqaməti üzrə II yeri qazanıb. X sinif şagirdləri Cəfər Cəfərov və Aytac Əliyeva biologiya, IX sinif şagirdi Ərhun Abdullazadə isə fizika və astronomiya istiqaməti üzrə üçüncü yerə layiq görülüblər. XI sinif şagirdi Fidan Ruhullayeva və X sinif şagirdi Xuraman Yəhyazadə biologiya istiqaməti üzrə xüsusi mükafata sahib olublar. Liseyin "Sabahın alimləri" XII respublika müsabiqəsinin qaliblər olan şagirdləri - Misir Hüseynli və Ayşan Hacıyeva fizika və astronomiya, Ayaz Ömərli və Ömər İbrahimov kimya istiqaməti üzrə mayın 13-dən 19-dək ABŞ-ın Texas ştatının Dallas şəhərində ISEF Beynəlxalq Elm və Mühəndislik Sərgisində öz layihələrini təqdim ediblər. Ayşan Hacıyeva və Misir Hüseynli ölkəmizi müsabiqədə uğurla təmsil edərək Çin Elm və Texnologiya Assosiasiyası (China Association for Science and Technology) tərəfindən xüsusi mükafata (1200 $) və sertifikata layiq görülüblər.

# BDU-nun "BSU Creativity Workz" komandası "TEKNOFEST - Girişim Yarışması"nın finalında çıxış edib




***Avqustun 31-də BDU-nun "BSU Creativity Workz" komandası "TEKNOFEST - Girişim Yarışması"nın final mərhələsində çıxış edib.***

BDU-nun "BSU Creativity Workz" komandası yarışmada "Ağıllı nəqliyyat texnologiyaları" kateqoriyası üzrə bu ilin may ayında İstanbul şəhərində keçirilən "TEKNOFEST-2023" festivalında birinci yerə layiq görülən "Driver's Eye" layihəsi ilə təmsil olunur.

Bu gün komanda üzvləri layihənin təqdimatını keçirib, Münsiflər Heyətinin suallarına cavab verib və müxtəlif panellərdə iştirak ediblər.

Qeyd edək ki, "TEKNOFEST-Girişim Yarışması"nda 10 kateqoriya üzrə 2419 komanda yarışır. Yarışın məqsədi keçmiş illərdə (2018 - 2023) TEKNOFEST festivalının müxtəlif kateqoriyalarında yarışaraq finalçı və ya qalib olan komandaların hazırladığı prototipləri, biznes ideyalarını istehsalata hazır son məhsula çevirmək, onların beynəlxalq bazara çıxışını, investorlarla görüşünü təmin etməkdir. Keçirildiyi illər ərzində "TEKNOFEST - Girişim Yarışması" vasitəsilə Türkiyədə müxtəlif istiqamətlərdə fəaliyyət göstərən 121 şirkət qurulub.

# Yeni tədris ilində BDU-nun SABAH qruplarında 1153 tələbə təhsil alacaq

***2023-2024-cü tədris ilində BDU-nun SABAH qruplarının II kursuna 11 ixtisas (Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, Biotexnologiya, Biologiya müəllimliyi, Coğrafiya müəllimliyi, Fizika müəllimliyi, Hüquqşünaslıq, Kimya müəllimliyi, Kompüter elmləri, Riyaziyyat müəllimliyi, Psixologiya, Tarix müəllimliyi) üzrə 409 tələbə qəbul olunub. Yeni tədris ilində BDU-nun SABAH qruplarında 11 ixtisas üzrə 964 tələbə təhsil alacaq.***

2023-2024-cü tədris ilində BDU-nun SABAH qruplarının magistratura səviyyəsinə 8 ixtisaslaşma (Jurnalistika, Kompüter elmləri və texnologiyaları, Ehtimal nəzəriyyəsi və statistika, Əməliyyatlar tədqiqi və sistemli təhlil, Optimallaşdırma və optimal idarəetmə, Nanohissəciklər fizikası, Nanohissəciklər fizikası (tədris ingilis dilində), Kimyəvi kinetika və analiz, Molekulyar biologiya) üzrə 137 tələbə qəbul olunub. Yeni tədris ilində BDU-nun SABAH qruplarında magistratura səviyyəsində 8 ixtisaslaşma üzrə 189 tələbə təhsil alacaq.

Qeyd edək ki, 2023-2024-cü tədris ilində SABAH qruplarının magistratura səviyyəsinə müəllim seçimi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi SABAH İcra Komitəsinin müəllimlərin müsabiqə yolu ilə seçim qaydasına uyğun olaraq aparılıb.

# BDU-nun məzunları Dövlət Proqramının qalibi olub

*2023/2024-cü tədris ili üçün həyata keçirilən sənəd qəbulunun növbəti nəticələri üzrə magistratura səviyyəsinə qəbul olan 381 namizədin 16 nəfəri BDU-nun məzunudur*

***BDU-nun 16 məzunu "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın iştirakçısı adını qazanıb və nüfuzlu universitetlərdə magistratura təhsili alacaq.***

2023/2024-cü tədris ili üçün həyata keçirilən sənəd qəbulunun növbəti nəticələri üzrə magistratura səviyyəsinə qəbul olan 381 namizədin 16 nəfəri BDU-nun məzunudur.

Onlardan 13 nəfəri Birləşmiş Krallıq, 3 nəfəri isə ABŞ-da təhsilini davam etdirəcək. Məzunlardan ikisi ABŞ-ın Harvard Universitetinə qəbul olub.

Məzunlardan 10-u 2023-cü ilin, 6-sı isə əvvəlki illərin məzunlarıdır.

Onlar müasir dövrün tələblərinə cavab verən və gələcəyin ən yaxşı ixtisaslarında təhsil alacaqlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq olunan Dövlət Proqramının əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, Azərbaycanın dayanıqlı inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etməkdir.

Məzunlarımızı təbrik edir, onlara yeni təhsil pilləsində uğurlar arzu edirik!

# Ana qədər əziz, Vətən kimi müqəddəs

## 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür

***Milli kimliyimizin açar sözü, bulaq suyu kimin saf və axıcı, tariximiz qədər zəngin...Bu, bizim Ana dilimizdir. Milli sərvətimiz, müstəqilliyimizin əsas sütunlarından biri.*** Dilimizin ən böyük vurğunu və hamisi, Ümummilli lider Heydər Əliyevin də dediyi kimi, "Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir. Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik. İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlıq borcudur".

Bu gün Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür. Ümummilli lider Heydər Əliyevin imzaladığı 9 avqust 2001-ci il tarixli 552 nömrəli fərmanla hər il avqust ayının 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir.

Ulu öndər həmin fərmanı latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci ilin avqustunda bütövlükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycanın ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq imzalayıb.

Sovet dövründə yaranmış əngəllərə baxmayaraq, sarsılmaz təməlləri olan Azərbaycan dili mövcudluğunu qoruya bilib. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının tərkibində müstəqil Dilçilik İnstitutunun yaradılması dilçiliyimizin bir elm kimi inkişafına ciddi təkan verib. Sonrakı illərdə Azərbaycan dilinin mövcud təhlükələrdən qorunması və gələcək nəsillər üçün mühafizə edilməsi istiqamətində Ulu öndər Heydər Əliyevin xidmətləri misilsizdir.

1969-cu ilin iyul ayında respublikanın rəhbəri seçilən Ümummilli liderin cəmi bir neçə aydan sonra Bakı Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində nitq söyləməsi həmin dövr üçün böyük bir hünər, cəsarət olmaqla bərabər, onun milli dəyərlərə, soy-kökə bağlılığının bariz nümunəsi idi. BDU-nun 50 illik yubileyindəki nitqindən başlayaraq Ulu öndər o dövrdə bütün rəsmi nitqlərini Azərbaycan dilində edir, bunu bütün rəhbər şəxslərə də




tövsiyə edirdi.

1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası təsdiq edilən zaman oraya dövlət dili haqqında maddənin salınmaması ilə heç cür barışmayan Ümummilli lider bu məsələdə sonadək öz prinsipial mövqeyini göstərib. 1978-ci il aprelin 2-də doqquzuncu çağırış Ali Sovetin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Ulu öndər Heydər Əliyevin təkidi ilə 73-cü maddəni yeni dəyişikliklə vermək qərara alınır. Bu dəyişiklik Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dilinin Azərbaycan dili olduğunu əks etdirir. Bütün çətinliklərə baxmayaraq, Ümummilli liderin bu cür tarixi qərara nail olması mənəvi varlığımızın əsası sayılan dilimizin inkişafında böyük addım oldu.

Ümummilli liderin milli varlığımızı qorumağa yönəlik siyasəti onun hakimiyyətə ikinci dəfə qayıdışından sonra daha da geniş vüsət aldı. Ulu öndər ana dilimizin saflaşdırılması və zənginləşdirilməsi istiqamətində mühüm addımlar atdı, Azərbaycan dilinin inkişafı və qorunması məqsədilə əhəmiyyətli sənədlər təsdiq etdi. Ölkəmizdə Azərbaycan dilinin hərtərəfli inkişafı, beynəlxalq münasibətlər sisteminə yol tapması ana dilimizin gözəl bilicisi, mahir natiq Ulu öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.

Müstəqil Azərbaycanın 1995-ci ildə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti, onun rəsmi dövlət dili statusuna yüksəlməsi milli dövlətçilik tariximizin ən önəmli hadisələrindən biridir. Bundan sonra dövlət səviyyəsində ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edilib. Ümummilli liderin 2001-ci il iyulun 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", həmin il avqustun 9-da imzaladığı "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" fərmanlar ana dilimizin qorunması və inkişafı baxımından göstərdiyi misilsiz xidmətlərdəndir. 2003-cü il yanvarın 2-də isə Ulu öndər Heydər Əliyevin fərmanı ilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib. Qanunda dövlətin ana dilinə qayğısı istiqamətində əsas vəzifələr dəqiq göstərilib.

Ulu öndər deyirdi: "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, bu həm də azərbaycançılıq məsələsidir".

Ümummilli liderin siyasi xətti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Dövlətimizin başçısının 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı ilə hər il latın qrafikalı Azərbaycan əlifbası ilə çap olunacaq əsərlərin siyahısı hazırlanır. Bundan başqa, həmin il yanvarın 14-də "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 2007-ci il dekabrın 30-da "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlarla ana dilinin həyatımızın bütün sahələrində müfəssəl tətbiqi gerçəkləşib.

Müasir dövrün tələblərini və reallıqlarını nəzərə alan Azərbaycan Prezidentinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nı 2013-cü il 9 aprel tarixli sərəncamı ilə təsdiq etməsi milli və mənəvi varlığımızın güzgüsü olan ana dilimizin saflığının və zənginliyinin qorunması baxımından mühüm tarixi hadisədir. Dövlət Proqramının məqsədi Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılması, dilimizin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi, ölkədə dilçilik araşdırmalarının yaxşılaşdırılmasıdır. Sənəd, eyni zamanda, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini nəzərdə tutur.

Prezident İlham Əliyevin "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 17 iyul tarixli sərəncamı Azərbaycan dilinin inkişafı və tətbiqi dairəsinin daha da genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Dövlətimizin başçısının 2018-ci il noyabrın 1-də imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanı ölkəmizdə dövlət dilinin daim diqqət mərkəzində saxlanıldığını bir daha təsdiq edir. Dil quruculuğu ilə bağlı olan bu sənəd Azərbaycan dilinin milli-mənəvi, siyasi-hüquqi statusunun möhkəmlənməsi istiqamətində atılmış mühüm addımlardan biridir. Həmin fərmandan irəli gələn vəzifələrin icrası çərçivəsində Nazirlər Kabinetinin müvafiq qərarı ilə Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi yaradılıb.

Ana dilimiz dövlətimizin, millət kimi varlığımızın təməl daşlarından biridir. Onun saflığını qorumaq, daha da zənginləşdirmək və gələcək nəsillərə ötürmək hər birimizin vətəndaşlıq borcudur.

# Filologiya fakültəsinə tələbə qəbulu aparılır

***Filologiya fakültəsində 15 kafedra və 4 elmi tədqiqat laboratoriyası fəaliyyət göstərir.***

Fakültədə Azərbaycan ədəbiyyatı tarixi, Rus ədəbiyyatı tarixi, Azərbaycan dilçiliyi, Azərbaycan şifahi xalq ədəbiyyatı, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası, Türkologiya, Ümumi dilçilik, Rus dilçiliyi, Dünya ədəbiyyatı, Azərbaycan dili və nitq mədəniyyəti, Rus dili (humanitar fakültələr üzrə), Rus dili (təbiət fakültələri üzrə), İngilis dili (təbiət fakültələri üzrə) İngilis dili (humanitar fakültələri üzrə), Alman və fransız dilləri kafedraları fəaliyyət göstərir.

Bakalavriat səviyyəsində 7 ixtisas üzrə - Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, filologiya (Azərbaycan dili və ədəbiyyatı), dil və ədəbiyyat müəllimliyi (rus dili üzrə), filologiya (rus dili və ədəbiyyatı), filologiya (alman dili və ədəbiyyatı), filologiya (fransız dili və ədəbiyyatı), filologiya (ingilis dili və ədəbiyyatı) ixtisasları üzrə mütəxəssis hazırlığı həyata keçirilir.

Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, dil və ədəbiyyat müəllimliyi (rus dili üzrə) ixtisasları üzrə məzunlar ümumi orta təhsil müəssisələrində (məktəblər, liseylər, gimnaziyalar) tədris apara bilərlər.

Filologiya (Azərbaycan dili və ədəbiyyatı), filologiya (rus dili və ədəbiyyatı), filologiya (alman dili və ədəbiyyatı), filologiya (fransız dili və ədəbiyyatı), filologiya (ingilis dili və ədəbiyyatı) ixtisasları üzrə məzunlar filologiya istiqamətli elmi-tədqiqat institutları, dövlət qurumları, yerli özünüidarəetmə orqanları və mülkiyyət formasından asılı olmayaraq müxtəlif müəssisələrdə filoloq mütəxəssis/məsləhətçi olaraq faaliyyət göstərə bilərlər.

Fakültədə tədris Azərbaycan və rus dillərində aparılır.

# Tarix fakültəsinə tələbə qəbulu aparılır

***Tarix fakültəsində 10 kafedra və 3 elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir.***

Fakültədə Arxeologiya və etnoqrafiya, Asiya və afrika ölkələri tarixi, Azərbaycan tarixi (humanitar fakültələr üzrə), Azərbaycan tarixi (təbiət fakültələri üzrə), Mənbəşünaslıq, tarixşünaslıq və metodikası, Avropa və amerika ölkələrinin yeni və müasir tarixi, Qədim dünya və orta əsrlər tarixi, Slavyan ölkələri tarixi, Türk xalqları tarixi və Qafqaz xalqları tarixi kafedraları fəaliyyət göstərir.

BDU-nun Tarix fakültəsində 4 ixtisas üzrə - Tarix, Tarix müəllimliyi, Regionşünaslıq (Qafqaz üzrə), Regionşünaslıq (Amerika üzrə) mütəxəssis hazırlığı həyata keçirilir.

Tarix ixtisası üzrə yetişdirilən məzunlar əldə etdikləri bilik və bacarıqlara əsasən müxtəlif dövlət orqanlarında, dövlət və özəl təşkilatlarda çalışa bilərlər.

Tarix müəllimliyi üzrə təhsil alan tələbələr ali və orta təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul ola bilərlər.

Regionşünaslıq ixtisasları üzrə məzun olan tələbələr səfirlik, beynəlxalq təşkilatlarda diplomat kimi fəaliyyət göstərə bilərlər.

Fakültədə tədris Azərbaycan, rus və ingilis dillərində aparılır.

# BDU-nun 6 tələbəsi I Beynəlxalq Proqramlaşdırma Düşərgəsində iştirak edir




***Avqustun 17-də BDU tələbələri ADA Universitetinin təşəbbüsü ilə keçirilən I Beynəlxalq Proqramlaşdırma Düşərgəsində iştirak edirlər.***

Düşərgədə BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin tələbələri - İsmayıl Zeynalov, Rüfət Talıbzadə, İzzət Məmmədov, Nicat Məcidov, Rəşid Babazadə Hüseyn Məmmədli iştirak edirlər. Ümumilikdə isə düşərgədə Belarusiya, Qazaxıstan, Gürcüstan universitetlərinin komandaları və Azərbaycan universitetlərindən komandaları yarışır. Ümumilikdə 18 komanda şəklində 50 nəfərin iştirak edəcəyi düşərgədə həm də məşqçilərdən ibarət 2 komanda fəaliyyət göstərir.

Layihənin müddətində keçirilən silsilə turnirlərin təşkilində əsas məqsəd bu ilin noyabrında Misirdə keçirilməsi planlaşdırılan universitet komandaları arasında Beynəlxalq Proqramlaşdırma Müsabiqəsinin (ICPC) finalında, eləcə də 2023-2024 "ICPC" mərhələsində iştirak üçün komandaları hazırlamaqdan ibarətdir. "ICPC" kimi tanınan Beynəlxalq Proqramlaşdırma Müsabiqəsi hər il dünyanın müxtəlif universitetləri arasında keçirilən proqramlaşdırma üzrə çoxmərhələli rəqabət yarışıdır.

Düşərgə zamanı altı gündə müxtəlif müsabiqələrin keçiriləcək. Düşərgənin proqramına müsabiqələrdən əlavə, Bakı şəhər turu, dəniz kənarına səyahət və asudə vaxtların əyləncəli keçirilməsi üçün futbol və voleybol oyunlarının təşkili də daxildir.

Düşərgə avqustun 19-dək davam edəcək.

# BDU tələbələri "Vəkil olmaq istəyirəm" adlı II yay məktəbində iştirak ediblər




***Hüquq fakültəsinin 18 tələbəsi Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin, Azərbaycan Respublikasının Gənclər Fondunun, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının və Gənclərin Maarifləndirilməsinə Dəstək İctimai Birliyinin birgə təşkilatçılığı ilə gənc hüquqşünas tələbələr üçün Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Vəkil olmaq istəyirəm" adlı II yay məktəbində iştirak ediblər.***

Yay məktəbində iştirak edən 55 hüquqşünas tələbəyə peşəkar biliklərin artırılması məqsədi ilə prosessual sənədlərin tərtib edilməsi, hüquqi yazı, vətəndaşlarla müsahibələrin keçirilməsi, məsləhətlərin verilməsi qaydaları, nitq qabiliyyəti və digər sahələr üzrə təlimlər keçirilib.

Yay məktəbində tələbərin asudə vaxtlarının səmərəli təşkil edilməsi məqsədilə intellektual və idman oyunları və Şəki şəhərinə səyahət təşkil edilib.

# BDU könüllüləri "Neft Daşları"na səfər ediblər



***Avqustun 3-də BDU-nun könüllüləri SOCAR-ın dəstəyi və Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Bir əsrin izində" layihəsi çərçivəsində "Neft Daşları"na səfər ediblər.***

Səfər zamanı iştirakçılar dünyada açıq dənizdə sənaye üsulu ilə qazılan ilk neft quyusuyla tanış olublar. Onlara quyunun tarixi və istismar dövrü, həmçinin buradakı neft hasilatının hansı proseslərdən keçdiyi barədə məlumat verilib.

# Jurnalistika fakültəsinə tələbə qəbulu aparılır

***Jurnalistika fakültəsində 4 kafedra, bir elmi-tədqiqat laboratoriyası, həmçinin Tədris tele-radio studiyası və "Füyuzat" Media mərkəzi fəaliyyət göstərir.***

Fakültədə Yeni media və kommunikasiya nəzəriyyəsi, Milli mətbuat tarixi, Multimedia ve elektron kommunikasiya və Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedraları fəaliyyət göstərir. Jurnalistika ixtisası üzrə Universiteti bitirən məzunlar müxtəlif media qurumları, müəssisə və təşkilatların mətbuat xidməti, ictimaiyyətlə əlaqələr şöbələri, informasiya agentlikləri və reklam sahələrində çalışa bilərlər.

Fakültədə tədris Azərbaycan, rus və ingilis dillərində aparılır.

# BDU-nun gənc tədqiqatçısı Almaniyada təcrübə keçib



***BDU-nun Sənaye kimyası elmi-tədqiqat laboratoriyasının əməkdaşı Fəridə Səlimova Almaniyanın Heidelberg Universitetinin Manhaym Tibb Mərkəzinin tədqiqat laboratoriyasında bir ay təcrübə keçib.***

Təcrübə zamanı o, qrafen oksidin HCT-116 hüceyrə xəttinə təsirini tədqiq edib. Həmçinin işığın HUVEC, HaCaT və NHDF hüceyrə xətlərinə təsirini öyrənib.

# BDU tələbəsi ABŞ-da SUSI proqramında iştirak edib




***Hüquq fakültəsinin IV kurs tələbəsi Səyad Ələkbərov Amerika Birləşmiş Ştatlarında ABŞ İnstitutlarının Öyrənilməsi (SUSI) proqramında iştirak edib.***

Proqram müddətində keçirilən mühazirələr Vaşinqton Universitetində "Vətəndaş iştirakı və liderlik" ("Civic Engagement and Leadership") mövzusunda davam edib.

Layihənin əsas məqsədi ABŞ təhsil sistemini daha dərindən başa düşmək və gənclərin liderlik bacarıqlarını artırmaqdır.

BDU tələbəsi proqram ərzində mülki hüquq, insan hüquqları, liderlik, könüllülüyün əsasları, konfliktlərin həlli, ekoloji problemlər, qlobal istiləşmə və s. istiqamətlərdə nüfuzlu professorların mühazirələrini dinləyib. Proqram çərçivəsində həmçinin ABŞ-nin bir sıra ştatlarına təhsil səfərləri təşkil edilib.

Qeyd edək ki, SUSI proqramı ABŞ Dövlət Departamentinin Təhsil və Mədəniyyət Məsələləri Mübadilələr Bürosunun proqramıdır və Tələbələrin Vasitəsilə Beynəlxalq Qarşılıqlı Anlaşma Fondu (Foundation for International Understanding Through Student - FIUTS) tərəfindən idarə edilir.

# BDU-da yay semestri üzrə dərslər başa çatıb



***BDU-da 2022/2023-cü tədris ilində təşkil edilən yay semestri başa çatıb.***

Ümumilikdə yay semestri dərslərində 200-dən artıq fənn üzrə 975 bakalavr və 29 magistr iştirak edib.

Yay semestri üzrə imtahanlar sentyabr ayının əvvəlində təşkil ediləcəkdir.

Qeyd edək ki, BDU-da yay semestri Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na əsasən təşkil olunub.

Yay semestrdə 2022/2023-cü tədris ilində bakalavriat və magistratura səviyyələrində təhsil alan tələbə və magistrantların fənlər üzrə akademik borclarının ləğv edilməsi və ya müvəffəqiyyət qazanılan fəndən qiymətin yüksəldilməsinə dair müraciətləri nəzərə alınıb.

# Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində 9 ixtisas üzrə mütəxəssislər hazırlanır

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində 7 kafedra - Beynəlxalq münasibətlər, Diplomatiya və müasir inteqrasiya prosesləri, İqtisadiyyat, Dünya iqtisadiyyatı, Maliyyə və menecment, Politologiya və sosiologiya, Riyazi iqtisadiyyat kafedraları fəaliyyət göstərir.

Fakültədə bakalavriat səviyyəsində 9 ixtisas üzrə - Beynəlxalq münasibətlər, İqtisadiyyat, Beynəlxalq ticarət və logistika, Politologiya, Menecment, Maliyyə, Dövlət və ictimai münasibətlər, Biznesin idarə edilməsi və Statistik ixtisasları üzrə tələbə qəbulu həyata keçirilir.

Beynəlxalq münasibətlər ixtisası üzrə məzunlar Xarici İşlər Nazirliyi, diplomatik nümayəndəliklər, beynəlxalq təşkilatlar, xarici şirkətlər, dövlət orqanlarının və yerli şirkətlərin beynəlxalq əlaqələr şöbələrində işləyə bilərlər.

İqtisadiyyat ixtisası üzrə məzunlar həm mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, həm də özəl şirkətlərdə iqtisadçı olaraq işləyə bilərlər.

Beynəlxalq ticarət və logistika ixtisasını bitirən məzunlar gömrük orqanlarında xarici ticarətin tənzimlənməsi prosesində, eləcə də transmilli şirkətlərdə ticarət və logistika üzrə çalışa bilərlər.

Politologiya ixtisasını bitirən məzunlar dövlət və qeyri-hökümət təşkilatlarında, eləcə də sosial təsisatlarda çalışa bilərlər.

Menecment ixtisasını bitirən məzunlar müxtəlif dövlət və özəl müəssisələrdə heyətin idarə edilməsi, strateji planlaşdırmanın aparılması, inzibati işlərin aparılması üzrə menecer vəzifələrində işləyə bilərlər.

Maliyyə ixtisasını bitirən məzunlar dövlətin maliyyə siyasətini həyata keçirən nazirlik, komitə və mərkəzi bankında, eləcə də yerli və beynəlxalq olmaqla özəl maliyyə-kredit təşkilatlarında işlə təmin oluna bilərlər.

Dövlət və ictimai münasibətlər ixtisasını bitirən məzunlar dövlət idarəetmə orqanlarında, ictimai və özəl mülkiyyətə əsaslanan şirkətlərdə çalışa bilərlər.

Biznesin idarə edilməsi ixtisasını bitirən məzunlar həm dövlət, həm də özəl mülkiyyətə əsaslanan məhsul və xidmətlərin istehsalını həyata keçirən müəssisələrdə biznes fəaliyyətinin səmərəli təşkili və idarə edilməsini özündə birləşdirən vəzifələrdə işlə təmin oluna bilərlər.

Statistika ixtisası üzrə fakültədə ilk dəfə olaraq 2023/2024-cü tədris ilindən başlayaraq tələbə qəbulu həyata keçiriləcək. Bu ixtisas üzrə Universiteti bitirən məzunlar Maliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi, Statistika idarələri və özəl mülkiyyətə əsaslanan şirkətlərdə çalışa bilərlər.

Fakültədə tədris Azərbaycan, rus və ingilis dillərində aparılır.

# Sosial elmlər və psixologiya fakültəsində 6 ixtisas üzrə tələbə qəbulu aparılır

***Sosial elmlər və psixologiya fakültəsində 8 kafedra, 2 elmi-tədqiqat laboratoriyası və "İNKİŞAF" respublika elmi-praktik mərkəzi fəaliyyət göstərir.***

Fakültədə Psixologiya, Sosial və pedaqoji psixologiya, Gender və tətbiqi psixologiya, Fəlsəfə tarixi və mədəniyyətşünaslıq, Fəlsəfə, Pedaqogika və Sosial iş kafedraları fəaliyyət göstərir.

Sosial elmlər və psixologiya fakültəsinə 6 ixtisas üzrə tələbə qəbulu aparılır.

Psixologiya ixtisası üzrə məzunlar praktik psixoloq kimi həm orta məktəblərdə, həm də müxtəlif psixoloji mərkəzlərdə, eləcə də ekstremal şəraitlər zamanı psixoloji xidmətin göstərilməsi zərurəti yaranan xüsusi qurumların struktur bölmələrində işləyə bilərlər.

Sosiologiya ixtisası üzrə məzunlar ictimai rəyin öyrənilməsi, sosioloji tədqiqatların aparılması, müvafiq sosial proqnozların hazırlanması, sosial informasiyaların təhlili və s. istiqamətində müxtəlif mərkəz və qurumlarda çalışa bilərlər.

Fəlsəfə ixtisası üzrə məzunlar xüsusən də elmi dünyagörüşü, elmi və dini baxışların fəlsəfi yönümdə təhlili, insan və həyat haqqında fəlsəfi baxışların ümumfəlsəfi kateqoriyalar əsasında təhlilinin aparılması istiqamətində müvafiq tədqiqat müəssisələrində, eləcə də gənclərlə iş üzrə özəl və dövlət qurumlarında idarəetmə sahəsində işləyə bilərlər.

Sosial iş ixtisası üzrə məzunlar əhalinin az təminatlı təbəqələrinin sosial problemlərinin müəyyən edilməsi və onlara müvafiq köməyin göstərilməsi, eləcə də risk qrupuna daxil olan insanlarla lazımi sosial işin aparılması istiqamətində işləyə bilərlər.

Təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə məzunlar təhsilin müxtəlif səviyyələrində psixoloji xidmətin həyata keçirilməsi istiqamətində müxtəlif təhsil müəssisələrində işlə təmin oluna bilərlər.

Korreksiyaedici təlim ixtisası üzrə məzunlar inklüziv təhsil sahəsində (yəni eşitmə, görmə məhdudiyyəti, intellektual çatışmazlığı, nitq pozulmaları olan uşaqlarla) fəaliyyət göstərməklə inkuliziyalı şəxslərdə müxtəlif qüsurların aradan qaldırılması və yeni bacarıq və vərdişlərin formalaşdırılması, eləcə də onların cəmiyyətə adaptasiyasının təmin edilməsində olduqca faydalıdırlar. Onlar xüsusi məktəblərdə, müəssisələrdə işlə təmin oluna bilərlər.

Fakültədə təhsil Azərbaycan, rus və ingilis dillərində həyata keçirilir.

# İlin ən böyük Super Ay hadisəsi müşahidə olunub

***Fizika fakültəsinin Astrofizika kafedrasından verilən məlumata görə, Ay Yerə ən yaxın məsafədə - orbitinin perigeyində avqustun 30-da Bakı vaxtı ilə saat 19:52-də olacaq və avqustun 31-də saat 05:37-də Dolu (Tam) Ay fazasına keçəcək.*** Bu hadisələr arasındakı fərq 9 saat 45 dəqiqə olacaq. Perigeydə Aya qədər məsafə 357181 km təşkil edəcək.

Buna görə də 2023-cü il avqustun 31-də müşahidə olunan Super Ayı ilin ən böyük Super Ayı adlandırmaq olar. Super Ay hadisəsini Azərbaycan ərazisində avqust ayının 30-dan 31-nə keçən gecə saat 19:23-dən başlayaraq bütün gecə ərzində müşahidə etmək olar. Bu hadisə adi Super Ay hadisələrindən biri hesab olunur. Sadəcə Dolu (Tam) Ay fazası bir ayda iki dəfə baş verirsə, ikinci Dolu Ay Mavi Ay adlandırılır.

# Astrofizika kafedrası: Bu gecə Super Ay müşahidə olunacaq



2023-cü ilin avqustunda Yer kürəsinin sakinləri iki dəfə Super Ay astronomik hadisəsini müşahidə edə biləcəklər.

Bakı Dövlət Universitetinin Fizika fakültəsinin Astrofizika kafedrasının məlumatına görə, Tam Ay fazası Ay perigeydə (Yerə ən yaxın məsafədə) və ona yaxın nöqtələrdə olursa, bu zaman Super Ay hadisəsi müşahidə edilir. Super Ay hadisəsi zamanı Ay perigeydə olduğundan apogeydə (Yerdən ən uzaq məsafədə) olarkən müşahidəsi ilə müqayisədə 14% daha böyük, 30%-ə yaxın daha parlaq görünür.

1-ci Super Ay hadisəsi avqustun 1-dən 2-nə keçən gecə müşahidə olunacaq. Ay avqustun 1-i Bakı vaxtı ilə saat 22:33-də Dolu (Tam) ay fazasında, avqustun 2-si saat 09:53-də isə perigeydə olacaq. Bu hadisələr arasındakı fərq 11 saat 20 dəqiqə təşkil edəcək. Perigeydə Aya qədər məsafə 357309 km olacaq. Super Ay hadisəsini Azərbaycan ərazisində saat 20:19-dan başlayaraq bütün gecə ərzində müşahidə etmək olar.

2-ci Super Ay hadisəsi avqustun 30-dan 31-nə keçən gecə müşahidə olunacaq. Ay Yerə ən yaxın məsafədə - orbitinin perigeyində avqustun 30-da Bakı vaxtı ilə saat 19:52-də olacaq və avqustun 31-də saat 05:37-də Dolu (Tam) Ay fazasına keçəcək. Bu hadisələr arasındakı fərq 9 saat 45 dəqiqə olacaq. Perigeydə Aya qədər məsafə 357181 km təşkil edəcək. Buna görə də 2023-cü il avqustun 31-də müşahidə olunan Super Ayı ilin ən böyük Super Ayı adlandırmaq olar.

Super Ay hadisəsini Azərbaycan ərazisində saat 19:23-dən başlayaraq bütün gecə ərzində müşahidə etmək olar.

Dolu (Tam) Ay fazası bir ayda iki dəfə baş verirsə, 2-ci Dolu Ay Mavi Ay adlandırılır. Lakin bu o demək deyil ki, Mavi Ayı görəcəyik. Mavi Ay ifadəsi çox qədimdən gəlir və şərti olaraq adlandırılıb. Vulkan püskürmələri zamanı atmosferə atılan toz səbəbindən Ayı mavi rəngdə görə bilərik. Avqust ayında baş verəcək 2-ci Super Ay hadisəsi eyni bir ayda ikinci Dolu Ay fazasına təsadüf etdiyindən bu, Super Mavi Ay adlandırılır.

# Astrofizika kafedrası: Avqustun 13-də Perseid meteor yağışı olacaq

***Kometlər və asteroidlər keçdikdən sonra onların yolunda qalıqları qalır. Yer kürəsi həmin qalıqlardan keçdikdə meteor yağışları baş verir. Belə yağışların ən məşhurlarından biri Perseid meteor yağışıdır. Perseid meteor yağışları hər il iyulun 17-dən avqustun 24-nə kimi davam edir. Perseidin maksimumu ildən asılı olaraq 11, 12 və ya 13 avqusta təsadüf edə bilər.***

Fizika fakültəsinin Astrofozika kafedrasının məlumatına görə, 2023-cü ildə Perseid meteor yağışının maksimumu avqustun 13-də olacaq. Maksimumda zenitdə saatda 150-yə qədər meteorun görünməsi proqnozlaşdırılır. Perseid meteorlarının geosentrik sürəti 59 km/s qiymətləndirilir.

Perseid meteor yağışı 1862-ci ildə kəşf edilmiş 109P/Svift-Tuttle kometinin qalıqlarından əmələ gəlir. Hətta bu kometi Perseid meteor yağışının "buzlu valideyni" adlandırırlar. Nüvəsinin diametri 26 km olan bu komet 133 ildən bir Yerin yaxınlığından keçir. Günəş ətrafında illik hərəkəti nəticəsində Yer hər dəfə yay aylarında kometin qalıqlarından keçir və bu zaman Perseid meteor yağışı baş verir. Radiant (meteorların mənbəyi) Persey bürcündə olduğu üçün meteor yağışı Perseid alandırılır. Bakıda Perseid meteor yağışının mənbəyi həmişə üfüqdən yuxarıda (batmayan) olduğu üçün meteor yağışı bütün gecə ərzində müşahidə olunacaq. Meteor yağışının avqustun 13-də günorta saatlarında maksimum aktivliyə çatacağı gözlənilir və ona görə də Azərbaycan ərazisindən ən yaxşı görüntüləri həmin gün səhər açılana qədər və axşam Günəş batandan sonra görmək olar.

Yerin öz oxu ətrafında fırlanması nəticəsində səhər saatlarında Bakıya gələn meteorların hərəkəti baxış istiqamətində olacaq. Bu səbəbdən meteorların sayı çoxluq təşkil edəcək. Həm də meteorlar atmosferə şaquli istiqamətdə daxil olacaq və ona görə onların buraxdığı izlər çox qısa görünəcək. Səhər saatlarında Bakı üçün meteor yağışının mənbəyi üfüqdən 63°-69° hündürlükdə görünəcək və buna əsaslanaraq demək olar ki, saatda 130-140-a qədər meteor görünəcək. Digər vaxtlarda isə Bakı üzərində yanan meteorlar daha az olacaq. Lakin bu meteorlar atmosferə bucaq altında daxil olduğuna görə tamamilə yanmazdan əvvəl səmanın böyük bir sahəsini keçə bilən uzunömürlü meteorlar əmələ gətirəcəklər.

# Tələbələr Geoloji Kəşfiyyat Agentliyində istehsalat təcrübəsi keçiblər



***Avqustun 10-da Geologiya fakültəsinin tələbələri Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nəzdində Geoloji Kəşfiyyat Agentliyində istehsalat təcrübəsi keçiblər. Tədqiqat sahəsi kimi təcrübələr Şamaxı və Astara rayonlarının ərazisində aparılıb.***

Təcrübə müddətində tədqiqat sahələrinin əsaslandırılmış metallogenik rayonlaşdırılması həyata keçirilib, ayrılmış struktur formasiya zona və yarımzonalar çərçivəsində prioritet faydalı qazıntılar və onların başlıca sənaye tipli yataqları müəyyən edilib.

Tərtib edilmiş müxtəlif profilli geoloji xəritələr perspektivli planlaşdırma, proqnozlaşdırma və faydalı qazıntı yataqlarının axtarışının elmi-praktiki əsası rolunu oynayır. Təcrübə müddətində tələbələrə xəritəalma işlərinin aparılması, faydalı qazıntı yataqlarının axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı, yerin təkində baş vermiş proseslərin proqnozlaşdırılması, mineral-xammal bazası haqqında informasiyanın toplanması, sistemləşdirilməsi və saxlanılması öyrədilib.

# BDU Könüllüləri təmizlik aksiyasında iştirak edib

***BDU-nun könüllüləri 12 avqust "Xəzər günü" münasibətilə keçirilən ənənəvi sahilyanı təmizlik aksiyasında iştirak ediblər.***

Aksiyaya IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqı və "Təmiz Şəhər" ASC-nin 100-dən çox gənc könüllüsünün iştirakı ilə Bilgəh çimərliyi ərazisi təmizlənib.

"Xəzər günü"nün qeyd edilməsində əsas məqsəd Xəzər dənizinin ətraf mühitinin çirklənmədən qorunması, o cümlədən Xəzər dənizinin bioloji ehtiyatlarının mühafizəsi, bərpası, davamlı və səmərəli istifadə edilməsi və bu istiqamətdə əhalinin maarifləndirilməsindən ibarətdir.



# BDU-da "Gənclik həftəsi" keçirilib



***BDU-nun Tələbə Gənclər Təşkilatı (TGT) 12 avqust - Beynəlxalq Gənclər Gününə həsr olunmuş "Gənclik həftəsi" layihəsinə başlayıb.*** Layihənin keçirilməsində əsas məqsəd əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətini təbliğ etmək, tələbələrin asudə vaxtlarının səmərəli və əyləncəli təşkili və gənclərin sosial inkişafına töhfə verməkdir.

Layihənin açılış mərasimində çıxış edən TGT sədri Ələkbər Həsənov qeyd edib ki, Bakı Dövlət Universiteti bu gün də ölkənin ictimai-siyasi və mədəni həyatında fəal iştirak edən, dövlətçiliyin daha da möhkəmləndirilməsinə töhfələr verən, vətənpərvərlik ruhunda tərbiyə edilən yüksəkixtisaslı mütəxəssis-gənclər yetişdirir. TGT sədri Ələkbər Həsənov "Gənclik həftəsi"nə 200 nəfərdən çox tələbənin qoşulduğunu, layihənin sonunda aktiv iştirakı ilə fərqlənən gənclərin hədiyyə və sertifikatlarla təltif olunacağını bildirib.

Qeyd edək ki, "Gənclik həftəsi" 18 avqust 2023-cü il tarixinədək davam edib.

# Tələbəmiz pauerliftinq üzrə 2 gümüş medal qazanıb

***Tarix fakültəsinin III kurs tələbəsi, Pauerliftinq üzrə Azərbaycan millisinin üzvü Talib Zeynalov Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən dünya çempionatında II yerin qalibi olub.***

Bu dəfə Talıb Zeynalov 2 gümüş medal qazanıb. İdmançı +107 kq çəki dərəcəsində gənclərin yarışında ən yaxşı nəticəyə (160 kq) və ümumi çəkiyə görə (307 kq) buna nail olub. O, bununla gənclər arasında Avropa rekordunu da yeniləyib.

Tələbəmizi qazandığı böyük nailiyyət münasibətilə təbrik edir, uğurlar arzulayırıq!

# BDU-nun magistraturasına qəbul planı 91,24 faiz dolub

***BDU-da 2023/2024-cü tədris ili üçün ali təhsil müəssisələrinin magistraturalarına əsas yerləşdirmədən sonra qəbulun nəticələrinə görə 1035 nəfər qeydiyyatdan keçib.***

2023/2024-cü tədris ili üçün BDU-nun magistraturasına qəbul planı 91.24 faiz dolub. Universitet üzrə ən yüksək nəticə balı 97-dir.

Qeyd edək ki, 2023/2024-cü tədris ilində BDU-nun magistratura pilləsinə qəbul üçün ümumilikdə 1199 plan yeri ayrılıb.

# BDU-nun Tələbə Gənclər Təşkilatı "Heydər Əliyev İli" çərçivəsində yeni layihəyə başlayır

***BDU-nun Tələbə Gənclər Təşkilatı (TGT) "Heydər Əliyev İli" çərçivəsində "Mədəniyyətimizi tanıyaq!" layihəsinə start verib.***

Layihənin əsas məqsədi gənclərdə Azərbaycanın zəngin mədəniyyətinə qarşı həvəsin artırılması və bu sahədə biliklərinin möhkəmlənməsidir.

Layihə çərçivəsində müxtəlif filmlər, musiqilər və s. kimi mədəniyyət nümunələrinə dair suallar BDU TGT-nin sosial media hesablarında paylaşılacaq, suallara doğru cavab verən gənclərə Azərbaycanın şair və yazıçılarının kitabları hədiyyə olunacaq.

# 2023/2024-cü tədris ilində BDU-da bakalavriatura səviyyəsinə qəbul planı artıb

***BDU-da 2023/2024-cü tədris ilində bakalavriatura səviyyəsinə 5660 plan yeri ayrılıb. Onlardan 4390 yer Azərbaycan, 765 yer rus, 505 yer isə ingilis bölməsi üzrədir. Ötən il bu rəqəm 5351 yer olub.***

Qeyd edək ki, BDU-nun bakalavriaturasında 16 fakültədə 75 ixtisas üzrə mütəxəssis hazırlığı həyata keçirilir. 2023/2024-cü tədris ilində BDU-da bakalavritura səviyyəsi üzrə 3 yeni ixtisas (Statistika, Meliorasiya mühəndisliyi, Muzey, arxiv işi və abidələrin qorunması) açılıb.

# BDU-da yay semestri üzrə dərslər davam edib

***BDU-da Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na əsasən, yay semestri təşkil olunub.***

Yay semestri 2022/2023-cü tədris ilində bakalavriat və magistratura səviyyələrində təhsil alan tələbə və magistrantların fənlər üzrə akademik borclarının ləğv edilməsi və ya müvəffəqiyyət qazanılan fəndən qiymətin yüksəldilməsinə dair müraciətləri nəzərə alınaraq təşkil edilib.

Ümumilikdə yay semestri dərslərində 200-dən artıq fənn üzrə 975 bakalavr və 29 magistr iştirak edib.

Qeyd edək ki, iyulun 25-dən başlayan yay məktəbi 6 həftə ərzində davam edib.

# BDU-nun magistraturasına qəbul olanlardan 33 nəfəri 90-dan yuxarı bal toplayıb

***2023/2024-cü tədris ili üçün BDU-nun magistratura səviyyəsinə qəbul planı 91.24 faiz dolub.***

Ali təhsil müəssisələrinin magistraturalarına əsas yerləşdirmədən sonra qəbulun nəticələrinə görə 1035 nəfər qeydiyyatdan keçib. Onlardan 33 nəfəri 90-dan yuxarı bal yığıb.

Universitet üzrə ən yüksək nəticə balı isə 97-dir. Bu nəticəni Lalə Nəbiyeva (Kommersiya hüququ (tədris ingilis dilində)) və Fidan Abiyeva (Beynəlxalq iqtisadi hüquq) göstərib.

# Dövlət Proqramı ilə Edinburq Universitetinə qəbul olan BDU məzunu: "Ölkəmi xaricdə təmsil etmək əvəzsiz duyğudur"

***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu Nihad Abbas "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Edinburq Universitetinə Dövlət idarəetməsi ixtisası üzrə qəbul olub.***

Nihad qəbul ilə bağlı sevincini bizimlə bölüşüb:



***- Nihad, bizə özün haqqında məlumat verə bilərsənmi?***

- 2019-cu ildə Heydər Əliyev adına liseyi bitirmişəm və BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinə qəbul olmuşam. Bu il Beynəlxalq münasibətlər ixtisasını fərqlənmə diplomu və 94.35 ortalama ilə başa vurdum.

***- Dövlət Proqramına qəbul üçün müraciət etmək ideyası necə yarandı?***

- Mən BDU-ya qəbul olduqda ölkənin ən yaxşı universitetinə qəbulun sevincini yaşayırdım. Buradakı təcrübə məni potensialımı daha çox artıra və inkişaf etdirə biləcəyimə inandırdı. Cənab Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın elan edilməsi məni daha da ruhlandırdı və burada iştirakı qarşıma məqsəd kimi qoydum. Digər tərəfdən xaricdə təhsil almaq və ölkəmi təmsil etmək mənim üçün əvəzsiz bir duyğudur.

***- BDU-da təhsil sənə Dövlət Proqramına qoşulmaqda hansı üstünlükləri verdi?***

- BDU ölkənin ən qabaqcıl ali təhsil ocağıdır, ən əsası isə Ümummilli Lider Heydər Əliyevin təhsil aldığı universitetdir. Həmçinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi tələbələr üçün geniş imkanlar açır, yüksəkixtisaslı kadrların hazırlanmasında böyük töhfələr verir. Məni cəlb edən də elə bu idi. Bütün bunlar da məni Dövlət Proqramına qoşulmaq üçün təşviq etdi. Eyni zamanda fakültə rəhbərliyinin və professor-müəllim heyətinin göstərdiyi dəstək, qəbul xəbərimlə bağlı keçirdikləri sevinc hissi tələbəyə verilən diqqət və qayğının bir nümunəsi idi.

***- Xaricdə təhsil alacağın ixtisası seçməkdə məqsədin nədir?***

- Seçdiyim Dövlət idarəetməsi ixtisası ilə ölkəmə yararlı kadr olacağıma inanıram. Fikrimcə, yararlı bir fərd olmaq hər bir vətəndaşımızın əsas qayəsidi. Mənim məqsədim də elə budur.

***- Qəbul xəbərin hansı təəssüratlarla yadda qalıb?***

- Gözləmədiyim bir vaxtda Dövlət Proqramının üçüncü mərhələ qalibləri açıqlandı. Bu siyahıda öz adımı görmək və həmin sevinci ailəmlə bölüşmək bəlkə də başıma gələ biləcək ən gözəl hadisə idi. Çünki bu, əməyimin ən gözəl nəticəsi idi.

***- Qeyd etmişdin ki, Universitet dönəmində sosial sahədə də aktivlik göstərmisən. Bu barədə də danışa bilərsənmi?***

- Bəli, doğrudur. Universitetin sosial həyatında daim iştirak edir, bir çox tədbir və layihələrin təşkilatçılığını da həyata keçirirdim. Həmin vaxtlar "BDU könüllüləri" təşkilatındakı fəaliyyətimlə bağlı dəfələrlə rektor Elçin Babayev tərəfindən təşəkkürnamələrə layiq görülmüşəm. Sosial aktivlik hər gəncin, tələbənin özünü inkişaf etdirməsi üçün vasitədir.

***- Ölkəmizi xaricdə təmsil edəcək bir gənc kimi tələbələrə hansı tövsiyələri verərdin?***

- Öz ixtisaslarını hərtərəfli öyrənmək, dil bacarıqlarını inkişaf etdirmək və ən əsası daim irəliyə baxmaq.

***Nurlan Cəbrayılzadə***
*Jurnalistika fakültəsinin II kurs tələbəsi*

# "BDU Könüllüləri" təşkilatının təşəbbüsü ilə 77 sosial və mədəni-kütləvi tədbir keçirilib

***BDU-da könüllülük hərəkatı ilbəil genişlənir. 2019-cu ildən fəaliyyət göstərən "BDU Könüllüləri" təşkilatı hazırda öz ətrafında 1000-ə yaxın könüllü tələbəni birləşdirir.***

Təşkilat 2020-ci ildən başlayaraq bir sıra uğurlu layihələr həyata keçirib, BDU-da könüllülük hərəkatının genişlənməsi, tələbə təşkilatları ilə birgə sosial və mədəni-kütləvi tədbirlərin təşkilində fəal iştirak edib.

Hazırda könüllü tələbələr BDU-nun müxtəlif struktur bölmələrində könüllü kimi fəaliyyət göstərməklə Universitetin ictimai həyatında fəal iştirak edir və gələcək karyeraları ilə bağlı təcrübələr əldə edirlər. 2022/23-cü tədris ilində "BDU Könüllüləri" təşkilatının təşəbbüsü ilə müxtəlif səpkili 77 tədbir keçirilib.

"BDU Könüllüləri" təşkilatı könüllülük sahəsində əməkdaşlığın möhkəmləndirilməsi və ölkəmizdə fəaliyyət göstərən digər könüllü təşkilatları ilə əlaqələrin qurulmasına xüsusi diqqət yetirir. Eyni zamanda gənclər arasında könüllülüyün təşviqi və təbliği, könüllülük sahəsində qarşılıqlı faydalı əməkdaşlığın qurulması ilə bağlı mövcud beynəlxalq təcrübənin öyrənilməsinə səy göstərir.

# BDU ilə "QS Quacquarelli Symonds" beynəlxalq reytinq agentliyi arasında görüş

***Təhsildə Keyfiyyət Təminatı Agentliyinin təşkilatçılığı ilə BDU və "QS Quacquarelli Symonds" beynəlxalq reytinq agentliyi arasında onlayn görüş keçirilib.***

Görüşdə rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov, "QS Quacquarelli Symonds" beynəlxalq reytinq agentliyinin regional direktoru Sergei Khristolubov, BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin əməkdaşı Zülfiyyə Şəfiyeva iştirak edib. Görüşdə QS qlobal və regional reytinqlərində BDU-nun göstəriciləri, əməkdaşlığın daha da genişləndirilməsi yolları və perspektivləri müzakirə olunub.

Görüşdə universitetin qlobal rəqabətə davamlılığının artırılması istiqamətində qarşıda duran hədəfləri barədə tərəflər arasında fikir mübadiləsi aparılıb. QS tərəfindən təqdim edilən indikatorlar üzrə məsələlərin mütəmadi olaraq diqqətdə saxlanıldığı vurğulanıb.

# "Gənc istedadlar" liseyinin şagirdlərinin növbəti uğuru



***BDU-nun "Gənc istedadlar" liseyinin VII sinif şagirdi Sulduz Hacıyev və VI sinif şagirdi Yunus Mehraliyev 6-13 avqust tarixində IMEC Riyaziyyat Olimpiadasının (IMEC - International Mathematics Olympiad) qlobal turunda işirak ediblər. Sulduz Hacıyev qızıl, Yunus Mehraliyev isə gümüş medala layiq görülüb.***

İngiltərənin London şəhərində yerləşən Harrov məktəbində keçirilən olimpiada IMEC Komitəsi tərəfindən təşkil edilib. IMEC Olimpiadası bütün şagirdlər üçün əlçatan olan qlobal bir yarışma yaratmağı hədəfləyir. IMEC Riyaziyyat olimpiadası şagirdlərə İngiltərə Universitetlərinə qəbul olmaq şansı verir.

Şagirdlərimizi təbrik edir və uğurlar arzulayırıq!

# "Gənc istedadlar" liseyinin dünyanın beş nüfuzlu universitetinə qəbul alan məzunu



***BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin məzunu Murad Novruzov dünyanın nüfuzlu ali təhsil müəssisələri olan Kanadanın MakQil Universitetinin kompüter elmləri ixtisasına qəbul olub.***

Murad Novruzov həmçinin Kanadanın Toronto və Britaniya Kolumbiyası Universitetiləri, Koreyanın Qabaqcıl Elm və Texnologiya İnstitutu (KAIST) və Belçikanın Löven Katolik Universitetinə də qəbul alıb.

Murad Novruzov Beynəlxalq Tələbə Təqaüdünün də qalibidir. Onun təhsil aldığı müddətdə alacağı təqaüd məbləği 80.000 ABŞ dolları (illik 20 000 ABŞ dolları olmaqla) təşkil edir.

Qeyd edək ki, Murad Novruzov 2021-ci ildə "Sabahın alimləri" X Respublika müsabiqəsində Riyaziyyat nominasiyası üzrə II yerə layiq görülüb. "Gənc istedadlar" liseyini qızıl medalla bitirib.

Muradı təbrik edir, gələcək təhsil həyatında uğurlar arzulayırıq!

**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Qulu Məhərrəmli
Xatirə Hüseynova
Samir Mirzəyev
Günel Orucəliyeva

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:**
31.08 .2023
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08